*Azərbaycan Respublikasının*
*Ədliyyə Nazirliyində*
*17 dekabr 2010-cu il tarixli,*
*4080 şəhadətnamə №-si ilə*
*dövlət qeydiyyatına alınmışdır*

*Azərbaycan Respublikasının*
*Maliyyə Nazirliyinin*
*15 dekabr 2010-cu il tarixli,*
*İ-211 №-li əmri ilə*
*təsdiq edilmişdir*

# İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqaviləsi üzrə sığorta məbləğinin müəyyənləşdirilməsi Qaydası

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Azərbaycan Respublikası Qanununun 14.4-cü maddəsinə əsasən hazırlanmışdır və həmin Qanunun məqsədləri üçün icbari sığorta müqaviləsi üzrə sığorta məbləğinin hesablanmasını tənzimləyir.

1.2. Bu Qaydaların məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə edilir:

1.2.1. aktuar metodları — sığorta tariflərinin, sığorta ehtiyatlarının və sığorta ödənişlərinin hesablanması zamanı aktuari tərəfindən tətbiq edilən iqtisadi-riyazi hesablama metodları;

1.2.2. gətirilmiş gözlənilən dəyər — faiz dərəcəsi və sığorta olunan şəxsin yaşı nəzərə alınmaqla hesablanan (diskontlaşdırılan) və gələcək tarixlərə aid olan məbləğlərin icbari sığorta müqaviləsi bağlanan tarixə gətirilən gözlənilən (ehtimal olunan) dəyəri;

1.2.3. prenumerando annuitet — ödənişləri dövrün əvvəlində həyata keçirilən annuitet.

## 2. Sığorta məbləğinin müəyyənləşdirilməsi

2.1. Sığortaçı sığorta məbləğini hesablayarkən illik faiz dərəcəsini 8 % götürməlidir.

2.2. *N* sayda sığorta olunan üçün bağlanmış İcbari sığorta müqaviləsi üzrə *i-ci* sığorta olunana münasibətdə sığorta məbləği aşağıdakı düsturla hesablanır:

$$SM_i = 1{,}15 \times \ddot{a}_{xi}^{(12)} \times P_i$$

Burada:

$SM_i$ — $i$-ci sığorta olunana münasibətdə sığorta məbləği;

$x_i$ — $i$-ci sığorta olunanın yaşı;

$P_i$ — $i$-ci *sığorta olunanın qanunvericiliklə müəyyən edilmiş qaydada hesablanan bir illik əmək haqqı fondudur.*

$\ddot{a}_{xi}^{(12)}$— *yaşı* $x_i$ *olan şəxs üçün aylıq ödənişi 1/12-ə bərabər olan prenumerando aylıq annuitetin gətirilmiş gözlənilən dəyəri.*

*2.3. İcbari sığorta müqaviləsi üzrə ümumi sığorta məbləği aşağıdakı düsturla hesablanır:*

$$SM = \sum_{i=1}^{N} SM_i$$

*Burada:*

*SM — ümumi sığorta məbləği;*

*N — sığorta olunanların sayı;*

*i — cəmləmə indeksi;*

$SM_i$ — *i*

***Misal:***

*Sığortaçı: ABC sığorta şirkəti*

*Sığortalının adı: XYZ təşkilatı*

*Sığortalı olunanlar:*

| *Sıra indeksi (i)* | *Ad və soyadı* | *Yaşı* ($x_i$) | *İllik əmək haqqı fondu* ($P_i$) | *prenumerando aylıq anuitetin g g d.* ($\ddot{a}_{xi}^{(12)}$) |
|---|---|---|---|---|
| 1 | 1-ci sığorta olunan | 35 | 2400 | 11,9136 |
| 2 | 2-ci sığorta olunan | 45 | 3000 | 11,0151 |

| | | | | |
|---|---|---|---|---|
| 3 | 3-cü sığorta olunan | 55 | 3600 | 9,7003 |

*1-ci sığorta olunan üçün*

$$SM_1 = 1,15 \text{ x } 2400 \text{ x } 11,9136 = 32881,536$$

*2-ci sığorta olunan üçün*

$$SM_2 = 1,15 \text{ x}3000 \text{ x } 11,0151 = 38002,095$$

*3-cü sığorta olunan üçün*

$$SM_3 = 1,15 \text{ x } 3600 \text{ x } 9,7003 = 40159,242$$

*İcbari sığorta müqaviləsi üzrə ümumi sığorta məbləği aşağıdakı düsturla hesablanır:*

$$SM = \sum^{N}_{i=1} SM_i = SM_1+SM_2+SM_3=33881,536+38002,095+40159,242=112042,873 \text{ manat}$$

*Beləliklə, müqavilə üzrə sığorta məbləği 112 042,873 manat olur.*

***«Azərbaycan Respublikasının normativ aktlarının bülleteni»ndə dərc edilmişdir (2010-cu il, № 11-12, s. 75) («VneshExpertService» LLC).***

***© «VneshExpertService» LLC***